# Azərbaycan türk mentallığı və milli-mənəvi dəyərlər



**Faiq Ələkbərli**
AMEA Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, dosent, fəlsəfə üzrə fəlsəfə doktoru

**II Yazı**

***XX əsrin əvvəllərində mühafizəkar dini dəyərlərdən çıxış edənlər Y.Talıbzadə, S.M.Qənizadə, Q.Qarabəyli və başqaları da olmuşlar. Yusif Talıbzadə islami dəyərləri müsəlman xalqlarının geriliyinin əsas səbəbi kimi göstərənlərə cavab olaraq yazırdı ki, İslam dini heç vaxt dünyəvi elmlərin öyrənilməsinin əleyhinə olmamış, əksinə müasirliklə ayaqlaşmış və özünün yenilikçi ruhunu qoruyub saxlamışdır (11). Talıbzadəyə görə, İslam aləminin mənəvi-ideoloji vəziyyəti Qərb millətlərini bir xeyli düşündürməkdədir. Çünki Qərb millətlərinin mülahizəsinə görə, müsəlmanlar Qurani-şərifə uyğun yaşamağa qeyrət etdikcə islam aləmi qüvvədən fələ çıxmaqla onlar üçün təhlükəli bir üfüq açılacaqdır (12). S.M.Qənizadə də müsəlman cəmiyyətlərinin problemlərinin həllində çıxış yolu kimi islam dinini, konkret olaraq Quranı göstərmişdi. Ona görə, insanlar Allahın qoyduğu şəriətlə getsə, cəmiyyət daxilində elm intişar tapsa insanlıq şərəfi və vicdan isməti də itməz (13, s.124). Qarabəy Qarabəyli milli-demokratik qüvvələri Avropa demokratiyasını və mədəniyyətini təbliğ etdiklərinə görə daim tənqid etmişdir. Ona görə, demokratiyanın mərkəzi sayılan Avropa həmişə islami dəyərlərə qarşı olmuş və müsəlman dövlətlərini məhv etmək niyyəti güdmüşdür. Ona görə də, Avropanın gözqamaşdıran demokratik dəyərləri aldadıcıdır (14, s.58).***

Hazırda Quzey Azərbaycanda milli-mənəvi və dini dəyərlərə münasibətdə əsasən islam dini anlamında, qismən də milli törələrlə bağlı ifrat şəkildə mühafizəkar mövqedə dayananlar vardır. Xüsusilə də, islam dini çərçivəsində ifrat mühafizəkar mövqedə dayananlar şiə təəssübkeşləri və vahabilərdir.

Milli-mənəvi və dini dəyərlərə münasibətdə radikal islahatçılıq, ya da inqilabi yenilikçilik yolunu tutanlar isə əsasən, bu vaxta qədər mövcud olan bütün milli-dini adət-ənənələrdən, dəyərlərdən imtina etməyi, birmənalı şəkildə Qərbləşmək, Avropalılaşmaq xəttini tutmağa üstünlük vermişlər. Bunlar arasında Mirzə Fətəli Axundzadə, Tahirə (Zərrintac) Qürrətül-Eyn, Mirzə Məhəmməd Əli Kazımbəy, Nəcəf bəy Vəzirov, Məhəmməd Ağa Şahtaxtlı, Cəlil Məmmədquluzadə, Ruhulla Axundov, Səmədağa Ağamalıoğlu və başqalarının adlarını çəkmək olar.

Çar Rusiyası işğal etdiyi bütün ölkələrdə, o cümlədən də Qafqazda və Quzey Azərbaycanda da milli-dini adət-ənənələri barbar mədəniyyət olaraq şüurlara yeridib, onların yerini rus-avropa mədəniyyəti ilə doldurmaq niyyəti güdürdü. Rus ideoloqları bu yolda da, ən münasib üsul kimi hər xalqın öz ziyalısının milli-dini adət-ənənələrə qarşı çıxıb “yeni mədəniyyət”in vacibliyindən bəhs etmələri üçün şəraitin yaradılmasında görürdülər.

Bunların başında gələn M.F.Axundzadə Qərb və çarizm ideoloqlarının, təsiri altında hesab edirdi ki, müsəlman dünyasının geriliyinin əsas səbəbkarı islami dəyərlərdir və xristian dinində olduğu kimi (protestantizm, lüterançılıq və b.), hökmən islam dinində də islahatlar aparmaq lazımdır. Bizcə, Axundzadənin son əsrlərdə özünün ilkin mahiyyətindən çox uzaqlaşan Türk-İslam mədəniyyətinə yeni baxış sərgiləməsi doğru olsa da, bütövlükdə islamiyyəti və milli adət-ənənələri ifrat şəkildə tənqid etməsi səhv idi. Üstəlik, Axundzadənin islamiyyəti tənqid edərkən onun ilk yayıcıları ərəbləri, daha sonra islamlığı inkişaf etdirən türkləri və türk dövlətlərini hədəf seçməsi bunun əvəzində farsları-zərdüştləri-sasaniləri müdafiə etməsi birmənalı deyildir.

Bir sözlə, Axundzadənin maarifçiliyində Şərq-İslam-Türk mədəniyyətinin ifrat dərəcədə tənqidi müqabilində Qərb-Rus-Fars mədəniyyətinin də ideallaşdırılması özünü büruzə verir. Biz buna ən bariz örnək kimi, onun 1850-ci illərdə bir-birinin ardınca yazdığı komediyalarını və bir povestini göstərə bilərik. İlk baxışda Axundzadənin Qərb mədəniyyətindən təsirlənərək yazdığı bu əsərlərində əsas məqsədinin avamlığı, cəhaləti, nadanlığı ifşa etmək, xalq arasında mövcud olan xoşagəlməz adət və ənənələri tənqid etdiyini düşünə bilərik. Bunu, Axundzadə özü də belə izah etmişdir: «Bu əsərlərdə mənim müsəlman camaatı arasında mövcud olan bəzi xoşagəlməz adətlərə və ənənələrə qarşı istehza yolu ilə etirazımı görənlər, bu etirazı mənim təəssübsüzlüyümə və xalqıma qarşı məhəbbətimin olmamasına yozmasınlar gərək! Çünki bu etirazlardan məqsədim ibrət dərsi verməkdir ki, başqaları bu kimi pis adətlərdən çəkinsinlər!» (15, s.56).

***Ancaq onun komediyalarında yaratdığı obrazlar (Hacı Qara, Dəvriş Məstəli şah, Tarverdi, Heydər bəy və b.) cəmiyyətin şüurunda özünüaşağılama kompleksinin yaranmasına səbəb olurdu. Bu komediyaları oxuyan hər bir kəs belə nəticə çıxara bilərdi ki, Azərbaycan xalqı əsasən avam, nadan, hiyləgər, boşboğaz, yalançı, xəsis və sair kimi tiplərdən ibarət bir cəmiyyətdir. Məsələn, «Hacı Qara» komediyasında məlum olur ki, Heydər bəy əvvəlcə varlı-karlı olsa da, sonra var-dövləti əlindən çıxır, ancaq o, halal yolla pul qazanmağı özünə ar bilərək qaçaqçılıq-quldurluq edir (16, s.122). Bununla da, Axundzadə iddia edirdi ki, bu xalqın bəyləri, xanları qaçaq-quldurluqdan başqa bir işə yaramırlar, deməli onları maarifləndirmək, tərbiyələndirmək lazımdır. Axundzadə çar Rusiyasının divanbəyisinin dilindən açıq şəkildə xalqı vəhşi tayfa adlandırıb tərbiyəsini vacib buyururdu: ‘Ey camaat, sizdən ötrü indi ibrət olsun! Dəxi vaxtdır inanasınız ki, siz vəhşi tayfa deyilsiniz! Sizə eybdir yaman işlərə qoşulmaq” (16, s.97).***

Üstəlik, M.F.Axundzadənin komediyalarındakı nadir olaraq müsbətə meyilli qəhrəmanları da mədəniyyət, ədəb-ərkan öyrənmək üçün Avropaya getmək istəyirər (16, s.50-54). Eyni zamanda Axundzadə komediyalarında islamda qadın məsələsini də önə çəkmiş, qadınların türk-islam cəmiyyətindəki yerinə diqqət yetirmişdir. Belə ki, şərəfnisələrin, şəhrəbanuların, pərzadların, şöllələrin, pərilərin, tükəzlərin və başqalarının timsalında türk-müsəlman qadınlarının vəziyyətini əks etdirməyə çalışmışdır. Ancaq bu məsələdə də bəzən ifrat varan Axundzadə Azərbaycan türk-müsəlman qadınlarını həddən artıq mövhumatçı, qorxaq kimi qələmə vermişdir (16, s.58-68). Deməli, Axundzadə bir tərəfdən komediyalarında özünün təbrincə desək, “xoşagəlməz” Şərq-İslam-Türk adət-ənənələrini tənqid edir, digər tərəfdən nicat yolunu da Qərb-Rus-Fars mədəniyyətini mənimsəməkdə görürdü. Bu mənada, istər çar Rusiyasının, istərsə Sovet Rusiyasının Axundzadəyə olan «sevgisi»nin kökündə Şərq, o cümlədən Türk və İslam mədəniyyətini inkar, Qərb-Rus-Fars mədəniyyətini iqrar etməsi dayanırdı.

Hesab edirik ki, bu anlamda Axundzadənin «Aldanmış kəvakib» povesti (1857) də, komediyalarının ruhundan çox da uzağa getməmişdir. Bu povestini Səfəvilər dövründəki tarixi bir hadisə əsasında qələmə alan Axundzadə öz-özlüyündə feodal idarə üsulunu, zülmkar hakimlərin ictimai eyblərini kəskin tənqid atəşinə tutmuşdur. Burada Axundzadə despot və ədalətli şahı bir-birinə qarşı qoymuş, bununla da xalqa hakimiyyətin hansı şəkildə idarə olunması məsələlərini anlatmağa çalışmışdır. Əgər komediyalarında Axundzadə xalqda olan xoşagəlməz adət-ənənələri, cahilliyi, avamlığı tənqid etmək yolu ilə onları maarifləndirmək, mədəni səviyyəsini qaldırmaq yolu tutursa, povestində hakimiyyətə, dövlət məmurlarına qarşı da eyni xətti davam etdirir (16, s.205-206).

Axundzadəsayağı yeniləşmənin müsbət cəhəti isə odur ki, İslam-Türk-Şərq mədəniyyətinin lazımsız yerə ideallaşdırılması tənqid hədəfinə çevrildi. Hər halda, dini və mili adət-ənənələrin ilkin mahiyyətindən uzaqlaşaraq onları ideallaşdırma xəstəliyi müsəlman ölkələrinin tənəzzülünə gətirib çıxartmışdır. Artıq XIX əsrdə İslam dini xurafat və mövhumat kimi başa düşülür, milli adət-ənənələr gerilik və vəhşilik kimi qələmə verilirdi. Həmin dövrdə millətin qabaqcıl şəxslərindən hesab edilən din xadimlərinin əksəriyyəti xurafat və mövhumatla məşğul olur, şairlər isə şeirlərini əsasən aşiq və məşuqa, yar və şəraba həsr edirdilər. Belə bir dövrdə tənəzzülə uğramaqda olan İslam-Türk-Şərq mədəniyyətinin mənəvi zəlzələsinə və tənqidinə doğrudan da ciddi ehtiyac var idi. Bu mənada, dini və milli dəyərlərə münasibətdə Axundzadənin həddən artıq radikallığı cəmiyyətin şüuruna mənfi təsir göstərməklə yanaşı, digər tərəfdən bir silkələnməyə (mənəvi zəlzələyə) də səbəb oldu. Hər halda Axundzadəsayağı yeniləşmənin doğurduğu mənəvi zəlzələni də qiymətləndirməmək mümkün deyildir. Beləliklə, Axundzadə milli-dini məsələlərin tənqidində təhrifə və ifratçılığa yol versə də, ümumiliklə cəmiyyyətdə yeniləşmə hərəkatına təkan vermiş, yeni nəslin qarşısında qərbyönlü də olsa, bir üfüq açmışdır (7, s.87-88).

Bizcə, Axundzadə kimi ruslaşdırma, qərbləşdirmə siyasətinin təsiri altında milli-mənəvi dəyərlərə münasibətdə əsasən yanlış mövqe tutanlardan biri də Nəcəf bəy Vəzirov olmuşdur. Vəzirovun da milli adət-ənənələrə radikal yanaşmasının kökü ruslaşdırma siyasəti ilə bağlı idi. O, Qafqaz müsəlmanları-türkləri, o cümlədən Quzey Azərbaycan xalqı arasında mövcud olan qədim adət-ənənələrin aradan qalxması ilə millətin nicat tapacağına inanırdı. Onun fikrincə, bu qədim adət-ənənələrlə millət inkişaf edə bilməz və ondan imtina etmək lazımdır. Çox yazıqlar olsun ki, Vəzirov ata-baba adət-ənənələri dedikdə də, onu son dövrün məhsulu olan xoşagəlməz “adətlər”lə qarışıq salmışdır: “Hərdəm tənha oturub fikir edirəm: xudavənda, bizim axırımız necə olacaq? Ağlımız ata-baba ağlı, getdiyimiz ata-baba yolu, heç bir dəyişiklik yoxdur. Ata-babamız xoruz və qoç döyüşdürüb, it boğuşdurub, qurşaq tutdurub, dərviş nağılına qulaq asıb, qızıl quş saxlayıb günlərin keçirdib, biz də ki bu yolu gedirik, tələf olacayıq. Səbəb ki, zəmanə dəyişilib. Əlbəttə, on il bundan əqdəm bizim dolanacağımız indikindən yaxşı idi və on ildən sonra dəxi yaman olacaq. Bəs biz haçaq öz dərdimizin əlacının dalıycan olub, uşaqlarımıza elm öyrədəcəyik?” (17, s.412).



***N.Vəzirov «ata-baba yolu»nu məhdud mənada gördüyü üçün, qədim adət-ənənələrin də bu yolla aradan qalxmasını uyğun görmüşdür. Fikrimizcə, o, gənc yaşlarında millətinin tarixi, mədəniyyəti ilə daha yaxından tanış olmadığı üçün, «ata-baba yolu» kimi, ancaq xalq arasında son dövrlərdə ortaya çıxmış bəzi xoşagəlməz adətləri önə çəkmişdir. Bunun nəticəsi idi ki, N.Vəzirova görə, Avropa alimlərindən Bokl və Dreper Avropa xalqlarının elm və ağlının bu mərtəbəyə çatmağının tarixini yazıblar və bundan ötrü də əllərinin altında kitabları olmuşdu. Ancaq müsəlmanların ata-babaları övladlarına müsbət mənada belə bir irs qoymamışlar. O yazır: ‘Gələcəkdə bizim tərəqqi etmək tarixini yazan indiki zəmanəyə baxanda məətəl qalacaqdır ki, nə yazsın? Həqiqət, bizim əsbablar qeyrə yüz, bəlkə min il bundan əqdəm olandan tərəqqi etməyib. Kitablarımızg Bu halda bizlərdə kitab inşa edən yoxdur. Kitab əvəzinə həcv inşa edirik. Və həcvlərimiz həm tənəzzül edir” (17, s.413).***